**Yenidən redaktə edin.** 1) Çalışın ki, xəbərin məğzi, «nə» sualına cavab ilk sətirdə olsun. 2) Bir daha yoxlayın – təkrarlar qalırmı? Həm sözlərdə, həm də mənada. Qalırsa, onlardan canınızı qurtarın. 3) Nəyisə ilk abzasdan çıxarıb mətnin sonrakı hissələrinə keçirmək mümkündürmü? Mümkündürsə, edin. 4) Ağır cümlələr varsa, onları yenidən yazın.

Fevralın 15-də icra başçısı Həsən Məmmədov Nərimanabad şəhərində sakinlərlə görüşdə bildirib

*Bu hissə ən vacib olandır, xəbəri bununla başlamaq yaxşı olardı.*

ki, məişət tullantıları zavodunun tikintisi üçün Məmmədli kəndinin ərazisi müəyyən olunub . Həmin

*Bu cümlənin çox qarışıq quruluşu var.* *Təkrar* *Əgər xəbər belə bir zavodun tikilməsi təklifi*

ərazidə bağ sahələrinin olmasına baxmayaq, icra başçısı hesab edir ki, Məmmədli kəndi zavodun

*barədə olsaydı, bu hissə bizim mətn üçün vacib olardı. Xəbər isə zavodun tikilməsi üçün*

tikintisi üçün yeganə münasib yerdir, çünki «günü-gündən abadlaşan rayonda» zibil məsələsi

*ərazinin seçilməsi haqdadır.*

birdəfəlik həll olunmalıdır.

*Yəni niyə Məmmədli kəndi – bunu demək vacibdir, amma zavod niyə vacibdir – bu başqa mövzudur. Ona görə də zavodun vacibliyi məsələsini növbəti abzaslara atırıq.*

İLK ABZAS (LİD):

*Nə?*

Məişət tullantıları zavodunun tikintisi üçün Məmmədli kəndinin ərazisi müəyyən olunub ,

*Nə zaman?* *Kim?* *Necə?*

|| fevralın 15-də || icra başçısı Həsən Məmmədov || Nərimanabad sakinləri ilə görüşdə belə

*Nə olsun?* *Niyə?*

deyib. Onun sözlərinə görə , həmin ərazidə bağ sahələri olsa da , || ərazi zavod üçün yeganə

«Onun sözlərinə görə» ifadəsi ilə biz icra başçısının çıxışının məğzini oxuculara çatdırırıq. Yəni redaksiya heç də iddia etmir ki, Məmmədli kəndi yeganə münasib yerdir. Bu fərqi bildirmək vacibdir

münasib yerdir .